# Mənəvi dirçəliş, inam və ümid işığı

***XX** əsrin 80-90-cı illəri müasir Azərbaycanın tarixində mürəkkəb hadisələrin baş verdiyi, dövlətçiliyin, xalqın taleyinin böyük təhlükə altına düşdüyü kəşməkeşli dövr kimi xarakterizə olunur. Sovet hakimiyyətinin sütunlarının sarsıldığı o illərdə ittifaqın tərkibində olan respublikalarda, o cümlədən Azərbaycanda xalq müstəqil yaşamaq, sovet imperiyasının boyunduruğundan xilas olmaq üçün ayağa qalxmışdı. Artıq 70 illik hegemonluq dövrü başa çatır, imperiya can verirdi.*

1920-ci ildə müstəqilliyini itirən xalqımız əsrin sonlarına doğru azadlığı, istiqlaliyyəti uğrunda yenidən mübarizəyə başlamışdı. Lakin mərkəzi hakimiyyət zəngin təbii ehiyatlara, əlverişli coğrafi mövqeyə sahib olan Azərbaycan kimi bir məmləkəti əlindən çıxarmamaq üçün hər vasitəyə əl atırdı. Xalqın istiqlal uğrunda mübarizəsini elə beşiyindəcə boğmaq məqsədilə məkrli planlar hazırlanır və daxildəki mənfur qüvvələrin əli ilə reallaşdırılırdı. Bir tərəfdən ölkə daxilində siyasi qarşıdurmalar yaradılır, respublika bölgələrə parçalanır, digər tərəfdən isə tarixin müxtəlif mərhələlərində ölkəmizə qarşı ərazi iddialarında olan ermənilərin əli ilə Qarabağ məsələsi gündəmə gətirilirdi. Düşünülmüş məkrli planın həyata keçirilməsində ən böyük manеə isə hansı vəzifədə çalışmasından asılı olmayaraq hər zaman canından çox sevdiyi xalqının, millətinin taleyini düşünən, əqli, zəkası, intellekti, geniş dünyagörüşü ilə Azərbaycanı bütün dünyada tanıdan, dövlətinə sədaqətlə xidmət edən ümummilli lider Heydər Əliyev idi. Bu zaman kəsiyində xalqımızın başına gətirilən faciələr, taleyüklü problemlər də məhz ümummilli lider Heydər Əliyevin Mixail Qorbaçovun siyasi oyunları nəticəsində vəzifəsindən uzaqlaşdırılmasından qaynaqlanırdı. Belə ki, 1982-ci ildə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini və Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev İttifaq miqyasında ən yüksək vəzifəyə yüksələn ilk azərbaycanlı idi. Sovet hakimiyyətində məsul vəzifədə çalışan Azərbaycanın dahi oğlu milli mənafeyi hər şeydən üstün tutur, həyatı bahasına olsa belə xalqımıza, dövlətimizə qarşı ədalətsizliklərlə kəskin mübarizə aparırdı. Bu səbədəndir ki, Heydər Əliyevin mərkəzi hakimiyyətdə rəhbər vəzifədə olduğu zamanlarda ölkəmiz sürətli inkişaf yolu ilə irəliləyirdi. Bu isə təbii ki, rus şovinistlərini, ermənilərı və havadarlarını bərk narahat edirdi.

1987-ci ildə Heydər Əliyevin SSRİ rəhbərliyindən getməsi ilk növbədə Azərbaycan xalqının səsinin susdurulması, mərkəzi hakimiyyətdə vəzifə postlarını tutan ermənilərə, onların havadarlarına isə göydəndüşmə fürsət idi. Belə ki, fürsəti fövtə verməyən Ermənistanın 1988-ci ildən etibarən Azərbaycana qarşı ərazi iddiaları kəskinləşdi, "Dağlıq Qarabağ"da separatçı hərəkat gücləndi. Sovet rəhbərliyinin bu proseslərə göz yumması, 1990-cı ilin 20 yanvarında Bakıda baş verən qanlı hadisələr Azərbaycan xalqının Sovet hakimiyyətinə inamını tamamilə məhv etdi. O vaxt Ulu Öndər Heydər Əliyev Moskvada yaşasa da, cəsarətli addımı hər zamankı kimi xalqının yanında olduğunu bütün dünyaya nümayiş etdirdi. Bakıda törədilən qırğınların səhərisi günü Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələrək bu qanlı cinayəti kəskin şəkildə pislədi. Mixail Qorbaçovu və onun Azərbaycandakı əlaltılarını 20 Yanvar hadisələrində birbaşa günahlandırdı. Beynəlxalq aləmə müraciət edərək rusların Azərbaycanda azadlığın, ərazilərinin işğalının dayandırılmasını tələb edən xalqın başına gətirilən faciələrə biganə qalmamağa çağırdı. Bu çıxış Heydər Əliyevin həyatını təhlükə altına qoydu. Bundan sonra onun Moskvada yaşaması daha da çətinləşdi. Təqiblər, təzyiqlər artdı, hətta təhdidlərdən belə çəkinmədilər. Vəziyyətin getdikcə daha da kəskinləşəcəyini yaxşı bilən Heydər Əliyev Vətənə qayıtmağa qərar verdi. Lakin SSRİ rəhbərliyi və onun Azərbaycandakı "qara qüvvələri" bu qayıdışı istəmirdilər, çünki çox gözəl bilirdilər ki, Heydər Əliyev xalqın yanında olsa, onun səsinin boğulması mümkün olmayacaq. Bütün bunlara rəğmən, Ulu Öndər heç bir təzyiqdən çəkinmədən öz xalqına, millətinə arxa olmaq üçün Vətənə qayıtdı. O zaman sovet hakimiyyətinin sütünlarının laxladığı bir dövrdə respublikada vəziyyət çox mürəkkəb idi. Dövlətin müstəqilliyini bərpa etmək üçün ayağa qalxmış xalqla sovet rəhbərlərinin əmrinə müntəzir dayanan mənfur qüvvələr üz-üzə dayanmışdı. 1990-cı il iyulun 20-də Bakıya gələn ümummilli lider mərkəzdəki ağalarına arxalanan satqınların təzyiqi nəticəsində iki gün sonra doğulduğu Naxçıvana qayıtdı. Bu qayıdış xalqın mənəvi dirçəlişi, inamın və ümidin yenidən doğuşu idi.

Naxçıvan əhalisi bu qayıdışı millətin qurtuluşu kimi qarşıladı. Hava limanında, yollarda, küçələrdə minlərlə insan Heydər Əliyevi böyük coşğu və ümidlə qarşıladı, ona sədaqətini ifadə etdi. Bu görüş həm də xalqla liderin bir-birinə arxalanması, mənəvi birliyin təsdiqi idi. Hava limanında, sonradan isə şəhərdə təşkil olunan görüşlərdə Ulu Öndər xalqın sıxıntılarını, ağrı-acısını, Qarabağ faciəsini, 20 Yanvar dərdini birbaşa xalqdan eşitdi. 22 iyul - həmin gün axşamçağı Naxçıvan şəhərindəki mərkəzi meydana muxtar respublikanın hər yerindən Heydər Əliyevi görmək üçün 100 mindən çox insan toplaşmışdı. Dahi şəxsiyyət meydanın mərkəzində hərarətli alqışlar, əzəmətli şüarlar altında qısa çıxışı ilə xalqına sonsuz məhəbbətini, sevgisini ifadə etdi, onun yanında olduğunu bildirdi.

O zaman muxtar respublikada vəziyyət olduqca gərgin, ziddiyyətli idi. Sərhədyanı kəndlər ermənilər tərəfindən işğal olunurdu, paytaxtla bütün əlaqələri kəsilmişdi. Erməni təcavüzü qarşısında aliyalın və köməksiz vəziyyətdə qalmış xalq o ağır illərdə Heydər Əliyevə böyük ümidlər bəsləyirdi. Görkəmli siyasi xadim və dahi şəxsiyyət xalqın tələbi və iradəsi ilə hakimiyyətə gəlməyə razılıq verdiyini bəyan etdi: "Mən bu zamanın, bu dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim... Mən öz prinsiplərimə sadiq qalaraq Azərbaycanın, Naxçıvanın belə vəziyyətində, çətin dövründə, üzərimə düşən vəzifənin ifasından geri çəkilə bilməzdim. Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm".

Heydər Əliyev xalqın təkidi ilə Azərbaycan SSR Ali Sovetinə deputat seçildi. 1991-ci il sentyabrın 3-də isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri oldu. Ermənistanın blokadası, enerji çatışmazlığı, silahlı hücumlar və ağır sosial-iqtisadi vəziyyətə baxmayaraq, muxtar respublika Heydər Əliyevin sayəsində dirçəlməyə başladı. Müdrik siyasətçinin uzaqgörənliyi, cəsarəti və qətiyyəti Naxçıvanı təhlükədən xilas etdi. Heydər Əliyev Naxçıvana gəldiyi gündən xalqla daim ünsiyyətdə olur, insanlarla görüşür, onların problemlərini birbaşa öz dillərindən eşidir, mümkün həll yollarını tapırdı. Öz nicatını dahi oğlunda görən naxçıvanlılar Ulu Öndərin ətrafında sıx birləşməklə zamanın, taleyin bu sınağından da mətanətlə çıxdılar. Ümummilli lider 1990-1993-cü illərdə Naxçıvanda siyasi fəaliyyət göstərdiyi zaman Azərbaycanın imperiya azadlığından xilas olması, müstəqil, demokratik və dünyəvi dövlət kimi fəaliyyət göstərməsi üçün mühüm, siyasi və ideoloji amilə çevrilən tarixi qərarlar qəbul etdi. İlk dəfə olaraq Naxçıvan Muxtar Respublikasında Azərbaycan Xalq Cumhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı kimi qəbul olundu. 20 yanvar 1990-cı il Qanlı Yanvar faciəsinə siyasi qiymət verildi. Bundan başqa, SSRİ-nin qorunub saxlanması barədə referendumdan Naxçıvan əhalisinin imtina etməsi, muxtar respublikada Kommunist Partiyasının yerli orqanlarının fəaliyyətinin dayandırılması, 20 Yanvarın Ümumxalq Hüzn Günü, 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan edilməsi, ilk demokratik islahatların keçirilməsi, ilk milli sərhəd qoşunlarının yaradılması, keçmiş sovet ordusu muxtar respublikanı tərk edərkən hərbi hissədəki silah-sursatın və texnikanın Naxçıvanda saxlanılması Ulu Öndərin göstərdiyi siyasətinin göstəricisi idi. Heydər Əliyevin sədrliyi ilə keçən parlamentin 1990-cı il 17 noyabr tarixli sessiyasında Muxtar Respublikanın rəsmi adından "sovet sosialist" sözləri çıxarıldı, "Naxçıvan Muxtar Respublikası" adlandırılması haqqında qərar qəbul edildi, Naxçıvan Muxtar Respublikasının ali qanunvericilik orqanı olan Ali Sovetin adı dəyişdirilərək "Ali Məclis" oldu. Ümummilli lider eyni zamanda, bölgənin erməni təcavüzündən müdafiəsi ilə bilavasitə məşğul olmağa başladı, bu məsələ onun əsas fəaliyyət istiqamətinə çevrildi. Böyük dövlət xadiminin ilk gündən başlayaraq atdığı addımlar, həyata keçirdiyi tədbirlər, uzaqgörən siyasətlə xalqı ətrafında birləşdirə bildi, sərhəd kəndlərində müdafiə dəstələri yaratdı, əhalinin ərzaq və yanacaqla təmin olunması üçün qonşu ölkələrlə əlaqələr qurdu.

XX əsrin sonlarında Azərbaycan xalqı böyük tarixi sınaqlarla üz-üzə qaldı. Ötən əsrin sonlarında Sovet İttifaqının süqutu dövründə Ermənistanın ərazi iddiaları, Qarabağ problemi, ölkədaxili siyasi böhran, milli kimliyə qarşı təzyiqlər Azərbaycanın gələcəyini sual altına qoymuşdu. Ulu Öndər Heydər Əliyevin belə ağır bir dövrdə - 22 iyul 1990-cı ildə Moskvadan Naxçıvana qayıdışı milli iradənin, müstəqillik ideyasının bərpasının başlanğıcı oldu. Bu, Azərbaycan xalqının azadlıq, müstəqillik, birlik, həmrəylik arzularının gerçəkləşməsi yolunda atılan cəsarətli, qətiyyətli addım idi. Ulu Öndərin xalqına, torpağına, Vətəninə bağlılığının sübutu olan bu tarixi hadisə, eyni zamanda xalqın inamını gücləndirdi. Xalq gördü ki, əsl lider xalqın yanında olan, heç bir çətinlikdən, təhdiddən qorxmadan səsini ucaldan şəxsdir.

Bu böyük etimad 1993-cü ildə ümummilli lider Heydər Əliyevin xalqın tələbi ilə Bakıya qayıtmasına və dövlət başçısı kimi Azərbaycanı parçalanmaqdan, vətəndaş müharibəsindən xilas etməsinə yol açdı.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

Respublika .- 2025.- 22 iyul (№ 149).- S.10.